Hər şeri zamanı gəlincə xatırlanır, heyhat!
Yəni heç vaxt anamız kimi
Başımızı sığallamaz həyat.

**Tərcümə Rəhmət Babacanındır**



# Abdulla Aripov

*Bu il XX əsr özbək ədəbiyyatının görkəmli nümayəndəsi, Özbəkistanın Xalq Şairi və Özbəkistan himninin müəllifi, tanınmış ictimai xadim Abdulla Aripovun anadan olmasından 80 illiyidir. Böyük şairi ehtiramla anır, bir neçə şeirini oxucularımızın diqqətinə çatdırırıq.*

## Təbəssüm eylədi: "Eh, sən də şair..!"

Nəğmələr oxudu o yara sərxoş,
Şeirlər söylədi sevgiyə dair.
Hamını güldürdü, o qız da xoş-xoş
Təbəssüm eylədi: "Eh, sən də şair..!"

Nəğmələr oxudu o yara sərxoş,
Ah dolu, vah dolu sevgiyə dair.
Ağlatdı hamını, o qız da xoş-xoş
Təbəssüm eylədi: "Eh, sən də şair..!"
Nəğmələr oxudu o yara sərxoş,
Nə güldü, nə bir damla göz yaşı tökdü.
Oxudu qürurla, qız isə naxoş
Başın yerə dikib yanından ötdü.

***

Bir məktub yazmadım,
Xəbər vermədim,
Halın soruşmadım onun mən nadan.
Görən halı necə indi anamın,
Bəlkə gözü yolda, durub nigaran.
Düşündü elə hey: "Oğlum yazdımı?"
Unudub özünü məni gözlədi.
Öz isti yerimdə mən nadan isə
Gələcək nəsilə yazıram indi.

***

Deyir: məktub yazarmi oğlum?
O məni gözləyir özün unutib.
Narahat çəkmədən, mən nadan isə
Nəsillərə yazıram məktub.

***

Yandım, alovlandım hər qəm gecəsi
Beləcə səssizcə yanıb qovruldum.
Çökəndə axşamın hüznü, qüssəsi
Munis baxaışların həyanım oldu.
Hər dəfə baxışlar görüşdü səssiz,
Mənsə söz deməyə qorxdum, çəkindim.
Belə yaşamaq da ötüşdü vecsiz,
O bir cüt qara göz xatirə indi.

## Anama məktub

Ana, geri qayıtmaq istəyirəm,
geri, sənin yanına.
Ürəyimdə saysız dərdlər,
bir də soyuq otağım, saatın çıq-çıqı.
Çöldə xəzəlli bağlar,
Yağış astadan öz nəğməsini oxuyur.
Bilmirəm, niyə birdənbirə hər şeyi
eyni vaxtda xatırlayıram,
səni anıram,
geri ayıtmaq istəyirəm, ana,
sənin yanına.

Ürəyimi açımmı, danışımmı-
Az-çox elə öyrəndiyim budur.
Xoşbəxt günlərimdə səni heç xatırlamadım,
Yalnız indi, bu hüzünlü vaxtda
Səni görmək istədim.
Səninlə bölüşmək istədim
Xəyallarımı, kədərlərimi,
Ağayaraq-gülərək demək istədim,
Demək istədim ki, adamların qiymətini
Bərabər olanda bilə bilmirik.

Yalnız yıxılanda,
Yalnız bir qəlbi yaxanda
anlarıq.
İnsanın zatı beləymiş.
Hərçənd anlamıram bu həqiqəti.
Sən isə anasan axı.
Məktubuma hirslənmə,
İndi yalnız doğrunu yazıram sənə,
Bağışla, xoşbəxt vaxtlarımda
Sən düşmürsən yadıma.

?

Amma heç nə elə belə deyil,